**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT 78.**
**DOI: 10.52094/3005-9941.45.2024.021**

**Rövşən Əbdürrəhman oğlu Əmrahov**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**dissertant**

# OQTAY ZÜLFÜQAROVUN FORTEPİANO TRİOSUNUN XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Təqdim olunan məqalədə Azərbaycan bəstəkarlıq məktəbinin parlaq nümayəndəsi Oqtay Zülfüqarovun fortepiano triosunun xüsusiyyətlərindən bəhs olunmuşdur. Məqalədə əvvəlcə bəstəkarın yaradıcılığına nəzər salınmış və kamera-instrumental əsərlərinin xüsusiyyətləri işıqlandırılmışdır. Daha sonra fortepiano triosu təhlil edilmiş və forma-quruluş, musiqi dilinin xüsusiyyətləri, obrazlar aləmi araşdırılmışdır. Nəzərə çatdırılmışdır ki, O.Zülfüqarovun fortepiano triosu bəstəkarın yaradıcılığına xas olan sadəlik və səmimiliyi, parlaq ifadəliliyi özündə birləşdirmişdir.

**Açar sözlər:** O.Zülfüqarov, bəstəkar, yaradıcılıq, trio, təhlil, forma, janr, fortepiano

Oqtay Zülfüqarov (1929-2016) milli bəstəkarlıq məktəbinin parlaq nümayəndələrindən biridir. O, özünəməxsus maraqlı yaradıcılıq dəsti-xətti və geniş irsi ilə tanınmışdır. Onun musiqisi öz işıqlı və olduqca həyatsevər siması, milli əlvanlığı, melodiya zənginliyi, harmonik təravəti ilə seçilir.

O.Zülfüqarov 1929-cu ildə Bakı şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini o, bir qədər gec, müharibədən sonra, 16 yaşında almağa başlamışdır (violonçel sinfi üzrə). Parlaq musiqi istedadina malik olan O.Zülfüqarov məktəb proqramını üç ilə bitirmiş və təhsilini Musiqi texnikumunda davam etdirmişdir. 1951-cı ildə, o, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət konservatoriyasına violonçel üzrə daxil olunmuşdur (İ.M.Turiçin sinfi). İki il sonra O.Zülfüqarov təhsilini bəstəkarlıq üzrə Q.Qarayevin sinfində davam etdirmiş və 1958-ci ildə uğurla başa çatdırmışdir.

O.Zülfüqarovun geniş əhatəli yaradıcılıq irsi var. O, demək olar ki, bütün musiqi janrlarında maraqlı əsərlər yaratmışdır. Bəstəkarın ən sevdiyi sahələrdən biri, proqramlı xarakter daşıyan simfonik musiqidir. “Şahdağ” simfonik poeması, “Şənlən, mənim xalqım” uvertürası, “Sumqayıt” simfoniyası, “Kosmosda tufan” simfonik poeması və s. kimi əsərlər dinləyici rəğbətini qazanmışdır.

O.Zülfüqarov, həmçinin violonçel üçün, fleyta ilə simfonik orkestr üçün konsertlərin müəllifidir. Bəstəkarın bir çox vokal-simfonik əsərləri də vardır.

O.Zülfüqarov kamera-instrumental və kamera-vokal janrlar sahəsində də öz sözünü deyə bilmişdir. Fortepiano Triosu, nəfəs alətləri üçün Skerso, iki fortepiano üçün Pyes, nəfəs alətləri seksteti üçün Üç pyes, fortepiano üçün Variasiyalar, iki simli Kvartet və s. repertuar əsərlərə çevrilmişdir.

Bəstəkarın yaradıcılığının ən sevdiyi və mərkəzi qollarından biri də uşaq musiqisidir. Bura uşaqlar üçün yazılan kantata, musiqili komediya, iki radio-opera, xorlar və çoxsaylı mahnı məcmuələri daxildir.

L.Raaben və T.Quliyevin söylədiyi kimi, O.Zülfüqarovun fortepiano triosu (1953) Azərbaycanda bu janrda yazılmış ən parlaq əsərlərdən biridir.

Bəstəkar trionu tələbəlik illərində, Q.Qarayevin sinfində oxuduğu zaman yazmışdır. Əsər Azərbaycan bəstəkarlarının I qurultayında səsləndirilmiş və həmin tədbirdə iştirak edən görkəmli rus bəstəkarı D.Şostakoviç tərəfindən yüksək qiymətləndirilmişdir. O demişdir: *"İlk müvəffəqiyyətdən gənc bəstəkarın başı gicəllənməsin – deyə bir sirr açmaq istəyirəm: konservatoriyanın tələbəsi Oqtay Zülfüqarovun "Violino, violonçel və fortepiano üçün trio"su mənim çox xoşuma gəldi. Gənc bəstəkarın əsəri gecənin sonunda ifa olundu. Həmin gün müxtəlif janrlı əsərlərə qulaq asmışdım. Açığını deyim ki, yorulmuşdum. Lakin gənc bəstəkarın əsərinin ilk notları, parlaq səsləri mənim gümrahlaşmağa, diqqətlə qulaq asmağa təhrik etdi və mən böyük məmnuniyyətlə bu əsəri axıradək dinlədim...* " [1].

Əsərdə bu növ kamera-instrumental janra xas olan bir sıra xüsusiyyətlər əks olunmuşdur. Trionun obraz dairəsi geniş və rəngarəngdir. Burada işıqlı həyatsevər əhval-ruhiyyə, gənclik xəyalları, romantik duyğular, lirik-elegik və eləcə də skersosayağı obrazlar təcəssüm edilmişdir. Lakin əsərin əsas obraz istiqaməti – lirikadır. Lirik obrazların mahnıvariliyi, skersosayağı və rəqs mövzuların oynaqlığı, ümumiyyətlə, musiqi dilinin zəngin melodikliyi və milli çalarları əsərin diqqətəlayiq cəhətlərindəndir. Bununla bərabər, trionun əsas tematik xəttini milli xalq musiqisindən bəhrələnən mahnı və rəqs ritm-intonasiyaları təşkil edir.

Məlum olduğu kimi, klassik trio janrı öz ənənəvi forma-quruluş xüsusiyyətlərinə malikdir və əsasən, üç təzadlı hissədən ibarətdir. O.Zülfüqarovun triosu bir qədər fərqlidir və özünəməxsus məzmun əhatəsinə görə dörd hissəli silsilədir:

I hissə – "Allegro moderato con fuoco";
II hissə – "Vivo leggiero (scherzando)";
III hissə – "Adagio";
IV hissə – "Allegro con brio".

Göründüyü kimi, əsərin hissələri temp göstəricisinə görə növbələşərək, bir-birinə təzad təşkil edir (mülayim cəld-cəld-asta-cəld). Vurğulayaq ki, lirik obrazlar sahəsi əsərin bütün hissələrində öz təcəssümünü tapır, lakin silsilənin əsl lirik mərkəzi – III hissədir (Adagio).

I hissə – "Allegro moderato con fuoco", sonata formasındadır, g moll – iki təzadlı və eyni zamanda hər ikisi lirik təbiətli mövzunun inkişafına əsaslanır. Obraz -emosionallıq baxımından əsas mövzu – narahat həyəcanlı, impulsiv-enerjili lirik mövzudur (violino, çello, sonra isə yenidən violinoda səslənir). Mövzu 16 xanəli, kvadrat formadadır. O, fortepianodakı onaltılıqların gərgin triol hərəkətli harmonik fiqurasiyaları fonunda səslənir. "Cəsarətli" kvarta intonasiyası ilə başlanan, geniş

diapazonlu, əsasən yuxari inkişaf edən melodiya qısa, qeyri-mütənasib ibarələrlə inkişaf edir. İbarələrin ritmik şəklinin dəyişkənliyi, onların əsasən sinkopalı ritmi, çox vaxt sekvensiyalı hərəkəti, minor ladına xromatik intonasiyaların müdaxiləsi və s. kimi xüsusiyyətlər deyilən coşqun, impulsiv obrazı əhatə edir.

Yuxarıda qeyd olunduğu kimi, ikinci dəfə mövzu çelloda başlayaraq, sonra violinoda keçir. Fortepianonun fiqurasiyaları fonunda simlilərin gərgin "dueti" tədricən yüksək zirvəyə, yuxarı registrə yönəlir. Belə inkişaf xətti artıq ekspozisiya daxilində əsas mövzunun kulminasiyasına gətirib çıxarır.

Əgər əsas mövzu həyəcanlı və fəaldırsa, köməkçi yumşaq, işıqlı və zərifdir ("dolce espressivo", d-F). Köməkçi mövzu həm melodik, həm də müşayiət baxımından ifadəli giriş epizodu ilə hazirlanır (5).

Nümunə 1.




Mövzu axıcı, oxunaqlı, mahnıvaridir və demək olar ki, Azərbaycan xalq lirik melodiyalarına yaxındır. Belə ki, mövzu:

1. Azərbaycan xalq mahnılarına xas olan ¾ ölçüsü;
2. gah pilləli, gah da gəzişmələrlə inkişaf etməsi;
3. tersiyalı yumşaq sıçrayışları və onların dərhal doldurulması;
4. cümlələrin əsas ("a") dayağına istinadı;
5. əsas dayaq ətrafında əmələ gələn gəzişmələr və s. kimi cəhətlər ilə səciyyələnir.

Köməkçi mövzu 16 xanəli kvadrat quruluşundadır. Onun cümlələri çello və violino partiyaları arasında zərif dialoq kimi səslənir. Belə dialoq fortepianonun yumşaq və nəcib hərəkətli müşayiəti fonunda səslənir. Bura ifadəli polifonik səsaltılar da daxildir.

Ümumiyyətlə, köməkçi mövzunun fakturası polifonik səsaltılar ilə zəngindir

və bu da ümumi səslənməyə ifadəli dolğunluq gətirərək, lirik obrazı gücləndirir, onu daha da qabarıq edir (5-6). Ekspozisiyanı ifadəli fortepiano solosu yekunlaşdırır.

Nümunə 2.




Geniş işlənmə bölməsi hər iki mövzunun inkişafına əsaslanır. İşlənmə bölməsinin özünəməxsus dramaturji xətti var. Bununla bağlı onu üç mərhələyə ayırmaq olar: əsas, köməkçi və yenidən əsas mövzunun işlənməsi. İşlənmənin əvvəlində əsas mövzu (violinoda) obraz-emosional baxımdan artıq dəyişilmiş şəkildə verilir. Yəni, ekspozisiyadakı lirik həyəcanlı obraz burada dərhal qroteskliyə dönür ki, bunu T.Quliyev də qeyd etmişdir (10) [4, s.60].

Nümunə 3.






Belə olduqda, mövzu sanki narahatlıq, mənfi fikir və duyğuların təmsilçisinə çevrilir. Burada lad-tonallığın dəyişikliyi (g moll əvəzinə b moll); metro-ritmik ölçünün 2/4 əvəzinə 4/4 səslənməsi və bununla ritmik şəklin iriləşmə və kəskinliyi (sinkopa və punktirlərlə); müşayiətdə kəskin ostinato əmələ gəlməsi; partiyaların ştrix kəskinliyi və s. kimi cəhətlər mövzunun qroteskli və bir qədər sarkastik xarakter almasına gətirib çıxarır.

Deyilən obrazın yaranmasında melodiyanın quruluşu ilə yanaşı, müşayiətdə (violonçel və fortepianoda) olan ostinato prinsipinin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

İşlənmənin növbəti mərhələsi köməkçi mövzu ilə bağlıdır. İşlənməyə məruz qalsa da, o, öz yumşaq və lirik xarakterini itirmir. Onun zərif və işıqlı siması burada yalnız tədricən bərqərar olunur. Mövzunun ilkin ibarəsinin işlənmələrlə, ixtisarlaşdırılmış, qısa şəkildə, müxtəlif tonallıqlarda, ayrı-ayrı alətlər ilə (violino, violonçel, sonra isə fortepianoda) səslənməsi, onun fikirli, sanki uzaq xatirələr kimi təcəssümünə səbəb olur (15-16).

Nümunə 4.






Mövzunun sonrakı variantlı inkişafı, onun işıqlı simasının yeni təsdiqinə və beləliklə, işlənmənin mərkəzi bölümünə gətirib çıxarır (“Con anima”, 20-21).

Nümunə 5.




Belə ki, mövzunun əsasən ritmik və lad-tonallıq dəyişmələri nəticəsində (3/4 ölçüsü dəyişməz qalır), burada yeni epizod əmələ gəlir. O, violinoda, violonçelin fəal passajları və fortepianonun dolğun harmonik akkordları fonunda verilir (A dur, Ges dur).

Sonuncu, üçüncü mərhələsi yenidən əsas mövzunun işlənməsinə qayıdır. Obraz-emosional baxımından onun səslənməsi ekspozisiyadakı narahat-həyəcanlı əhval-ruhiyyəyə yaxındır (variantlı dəyişikliklər əsasən mövzunun lad-tonallıq, tematik, ritmik tərəflərinə aiddir). Simlilərin dueti burada fortepianonun ekspozisiyadakı triollu yox, kvintollu dalğalanan fiqurasiyaları fonunda keçirilir (22, h moll).

Fortepianonun belə fiqurasiyaları musiqiyə lirik-romantik çalarlar əlavə edir. Fəal lad-tonallıq inkişafı isə, “işıq-kölgə” effektini yaradaraq səslənməyə rəngarənglik verir.

İnkişaf əsnasinda əsas mövzu yeni, indi isə marşvari, gümrah-cəsarətli obraza transformasiya edilir (“Piu mosso”).

Nümunə 6.




O, öncə violonçeldə (26), sonra isə violinoda səslənir (28).

Nümunə 7.




Belə obraz isə tempin sürətlənməsi, 4/4 ölçünün marşvari xüsusiyyətləri, alətlərin “staccato” ştrixləri, fortepiano partiyasının təkrarlanan dolğun harmonik akkordları, partiyalararası polifonik imitasiyalı inkişaf və s. kimi cəhətləri ilə yaradılır.

Beləliklə, işlənmə üçmərhələlidir. Bura əsas mövzunun qroteskli-sarkastik obrazı, köməkçi mövzunun yüngül, işıqlı və rəngarəng siması və sonda əsas mövzunun lirik-həyəcanlı, axırda isə marşvariyə transformasiya etməsi görünür. Hər iki mövzunun inkişafında motiv işlənmələri, variantlı işlənmələr, sekvensiya tipli hərəkət formaları və s. böyük rol oynayır.

Repriz dinamikdir. Ekspozisiyaya nisbətən burada mövzuların, əsasən, tembr xüsusiyyətləri dəyişir. Lirik-həyəcanlı əsas mövzu öncə simlilərin unisonu (fortepianonun gərgin fiqurasiyaları fonunda), sonra isə fortepianonun dolğun, parlaq akkordları ilə (simlilərin polifonik xətləri fonunda) keçir (30-31).

Nümunə 8.




Köməkçi mövzunun inkişafı ekspozisiyada olduğu kimi polifonikdir. Simlilərin təsirli “duet”i ifasında, fortepianonun yumşaq “yırğalanan” fonu əsasında səslənən mövzu yeni incə səsaltılar ilə dolğunlaşır (34-35).

Nümunə 9.




Kiçik koda (“Andante”, 36) köməkçi mövzunun intonasiyaları əsasındadır. Onun dalğın və fikirli səslənən cümləsi ardıcıllıqla violino, violonçel və fortepiano ilə imitasiya olunur. Beləliklə, hissə müəmmalı, sanki cavabsız sualla yekunlaşdırılır.

Nümunə 10.




Uzaq tonallıqların dəyişməsi musiqiyə rəngarənglik gətirir (h moll, as moll, Es dur, G dur). Onların zəminində burada Azərbaycan humayun məqamının intonasiyaları da nəzərə çarpır.

I hissədə polifoniyanın rolu da önəmlidir. Səsaltı polifoniya fakturanı dolğun və oxunaqlı (köməkçi mövzu), imitasiyalı isə dinamik edir (işlənmə, koda).

II hissə ("Vivo leggiero scherzando, f   moll) silsiləyə parlaq təzadlıq gətirir. L.Raaben burada "Azərbaycan tarantellası" [3] və T.Quliyev isə fantastik, nağıl obrazlarının [4] təcəssümünü görürlər. Burada gəncliyə xas olan şux enerjili, şıltaq, oynaq, məzəli və zarafatlı, obraz əks olunur (2).

Nümunə 11.




II hissə kiçik giriş ilə başlanan, sadə üçhissəli quruluşa malikdir. Artıq buradan gümrahlıq, enerji, oynaq obrazın qığılcımlanan ritmi özünü büruzə verir və bu da əsas mövzunun səslənməsi üçün zəmin yaradır.

Girişin qeyri-adi lad-intonasiya strukturu da qeyd olunmalıdır. Azərbaycan çahargah məqamı və Avropa bütövtonlu lad elementləri burada maraqlı səslənmə

əmələ gətirir. Eyni zamanda, girişin melodik və ritmik xüsusiyyətləri, triolun xanənin güclü hissəsinə düşməsi və səkkizliklərin punktir ritmi, qısa ibarələrin sıçrayışlı sonluqları, ştrixlərin mürəkkəbliyi (simlilərdə pizzikato, fortepianoda aksentlər) və s. deyilən qeyri-adi, məzəli, zarafatcıl obrazın yaradılmasına kömək edir.

Əsas mövzu təkrarlanan, iki cümləli, kvadrat period formasındadır. Melodiyanın (violinoda) sürətli gedişi, əsasən punktirli-pilləli hərəkəti, ritmik şəklinin mürəkkəbliyi (triolların punktir səkkizliklərə keçməsi), cümlələrin mütənasibliyi və təkrarlanmaları və s. oynaq və şıltaq obrazı yaradan cəhətlərdir. Mövzunun hər cümləsi sinkopalı, aksentləşdirilmiş, yuxarı yönələn oktava sıçrayışı ilə tamamlandırılır və bu da musiqidə məzəli, "cəsarətli hökm" intonasiyası yaradır. Skersosayağı səslənmə əldə etmək üçün ifaçılardan aksentli notların xüsusi səylə qeyd olunması tələb olunur.

Mövzu yüngüllüyü və plastikliyi ilə səciyyələnən violino alətinə tapşırılır. Müşayiət də onun üzərinə düşən, vacib obraz – məna yükünü daşıyır. Belə ki, mövzunun fortepianonun sinkopa ritmli ostinato fonunda səslənməsi, simlilərin qisa imitasiya və səsləşmələri də deyilən obrazı daha da qabarıq edir. Tədricən mövzunun elementlərinin variantlı işlənməsi, musiqinin inkişafını işıqlı (Ges dur) fraqmentə yönəldir (6).

Nümunə 12.




II hissənin orta bölümü ("Con anima leggiero") kənarlarla təzad təşkil edir və yeni, lirik, səlis, rəvan, plastik hərəkətli, axarlı mövzuya əsaslanır (7-dən dörd xanə sonra). Mövzu təzadlı olsa da, əvvəlki hərəkətlik impulsu burada da saxlanılır. Mövzu 16 xanəli, kvadrat period formasında qurulur. O, fortepianonun sinkopa ritmli, kiçik girişi ilə hazırlanır (7).

Nümunə 13.




Melodiyanın yumşaq kvinta sıçrayışları hamar, pillə-pillə enən oxumaların hərəkəti ilə tarazlanır. Onun cümlələri öncə violino və violonçel, sonra isə fortepiano və violonçel arasında dialoq şəklində (10-11), fortepianonun ostinatolu fonunda səslənir. Simlilər arasında əmələ gələn qısa, ifadəli imitasiya və səsləşmələr birinci, oynaq mövzunun elementləri əsasındadır. Fortepiano ostinatosu ilə bərabər, onlar hissənin əvvəlindəki hərəkətliyin, enerjili atmosferin saxlanılmasına kömək edir.

Nümunə 14.




Orta bölümdə ifaçı melodiyanın liqalı, oxunaqlı, səlis, rəvan səslənməsinə xüsusi diqqət yetirməlidir, çünki bu bölüm birinci mövzunun oynaq (staccato), kənar bölmələrinə təzad təşkil edir və bu da qabarıq şəkildə göstərilməlidir.

Repriz dinamikdir (13).

Nümunə 15.




Dinamik dəyişikliklər əsasən mövzunun alətləşdirilməsi və tembr dəyişiklikləri ilə bağlıdır. Belə ki, mövzu öncə violinoda (əvvəlki fakturada), sonra isə fortepiano unisonunda verilir (violinonun ostinatolu formulası ilə, 14).

Nümunə 16.




Bu hissə məzəli, şən, oynaq obrazlı sonluq ilə yekunlaşdırılır (15-16).

Nümunə 17.




Vurğulayaq ki, həm kənar, həm də orta hissənin faktura dinamikliyinin yaradılmasında ostinato üsulunun önəmi böyükdür.

Trionun III hissəsi ("Adagio", b moll) lirik obrazların təcəssümünə həsr olunur və O.Zülfüqarovun yaradıcılığının ən gözəl lirik səhifələrindən biridir. Burada qəm-qüssəli romantik hisslər öz əksini tapmışdır. Azərbaycan kamera-instrumental sənətinin öyrənilməsinə həsr olunmuş bir çox elmi işlərin müəllifi, T.Quliyev haqlı yazdığı kimi, bu hissənin musiqisi qəmli, "şikayətli" elegiya janrına aiddir [83].

Adagio – sadə üç hissəli formada yazılmışdır. Mövzunun səslənməsi qisa fortepiano girişi ilə hazırlanır, onun intonasiyaları olduqca oxunaqlı, mahnı-romans təbiətlidir (o, səkkiz xanəli, kvadrat period formasındadır). Musiqi öz melodik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Belə ki, onun əsasən rəvan və səlisliyi, oxumalarla keçirilən inkişafı, ibarə təkrarlanmaları və onların melizmlərlə zənginləşməsi, ibarələrin sekvensiyalı hərəkəti, eləcə də bəzi ibarələrin zəif ritmik hissədən başlanması, aşağı yönələn "ah" intonasiyaları və s. lirik-həyəcanlı və elegik obrazı yaradan xüsusiyyətlərdir. Təsadüfi deyil ki, melodiya öncə violonçelin orta registrindəki yumşaq, məxməri tembrinə, sonra isə simlilərin unisonuna (1) tapşırılır (fortepianonun dolğun səslənən, onaltılıqlarla təkrarlanan, harmonik akkordları fonunda).

Nümunə 18.




Musiqinin milli xüsusiyyətləri də qeyd olunmalıdır. Melodiyanın pillələrinin xromatik dəyişiklikləri onu müxtəlif Azərbaycan məqamlarının çalarları ilə zənginləşdirir. Adagio sadə üçhissəli formaya malikdir. Orta hissə ("Animato") öz işıqlı obraz siması ilə musiqinin ümumi axarına təzadlıq gətirir (2).

Nümunə 19.




Lakin, eyni zamanda vurğulayaq ki, orta hissə inkişafedicidir. Yəni, o, elegik mövzunun elementlərinin inkişafına əsaslanır. Belə inkişaf əsasən tematik, lad-tonallıq və faktura dəyişiklikləri ilə bağlıdır. Mövzunun inkişafında motiv işlənmələri vacib rol oynayır. Burada polifoniyanın müxtəlif formalarının əhəmiyyəti də olduqca böyükdür. Nəticədə orta bölüm geniş həcmli və dinamikdir.

Orta bölümü bir neçə epizoda ayırmaq olar. Qeyd olunduğu kimi, "Animato" –

yumşaq və işıqlı obrazı ilə səciyyələnir (Des dur). O, əksəriyyətlə, elegik mövzunun motivlərinin inkişafına arxalanır (əvvəlki 4/4 metro-ritmik ölçü dəyişməz qalır). Belə ki, violinoda səslənən tematik material violonçel ilə ifadəli səsaltı polifoniya əmələ gətirir (fortepianonun gərgin passajları fonunda). Tonallığın dəyişməsi növbəti ifadəli, zərif və işıqlı epizodun başlanğıcını göstərir (Cis dur, 3). O da əsas, elegik mövzunun elementləri üzərində qurulur. Violonçeldə səslənən parlaq, təsirli, işıqlı tematik fraqment violinoda, sonra fortepianoda yarım xanə gecikmə ilə imitasiya olunur və hər üç alətin iştirakı ilə kiçik bir kanon əmələ gəlir. Bu cür imitasiyalı polifonik inkişaf sayəsində fraqment axıcı, sərbəst xarakter kəsb edir (3).

Nümunə 20.




Əsas elegik mövzunun fortepianoda, öz tonallığında deyil (b moll), tabe, dominanta tonallığında qayıdışı (f moll, 4) və simlilərdə səsaltı polifonik toxumalar əmələ gətirməsi, tədricən, musiqinin inkişafını həyəcanlı edərək, yüksək zirvəyə doğru aparır (5-6).

Nümunə 21.



Nümunə 22.




Lakin belə fəal, lirik-dramatik hərəkət, kulminasiyaya gətirib çıxarmır və musiqinin inkişafında maraqlı dramaturji effekt yaradır. Zirvə nöqtəsinə yönələn həyəcanlı melodik xətt sanki gözlənilməz şəkildə qırılaraq dayanır (7-yə bir xanə qalmış). Beləliklə, ümumi inkişaf reprizin səslənməsi və əsas elegik mövzunun qayıdışı ilə nəticələnir (7).

Reprizdə mövzu artıq violinoya (“con sordino”) tapşırılır, sonra isə violonçel ilə, fortepianonun əvvəlki həyəcanlı akkordları fonunda keçirilir (7-8-9).

Nümunə 23.




Final (“Allegro con brio”, G dur) sanki möhtəşəm xalq şənliyini, bayram əhval-ruhiyyəsini tərənnüm edir (rondo-sonata forması). Bu hissə kiçik, ikixanəli fortepiano girişi ilə başlanır. Artıq buradan şən canlanma, gümrahlıq, şux ab-hava özünü büruzə verir və bu da əsas mövzunun (refrenin) səslənməsi üçün zəmin yaradır. Marş ritmli (4/4), rəqsvari, cəld, mütəhərrik əsas mövzu – refren olduqca dinamik və temperamentlidir (sadə üçhissəli forma). Melodiyanın inkişafı, əksəriyyətlə, əsas tonallığın kvinta dayaq pilləsi ətrafında cəmləşir. Dayağın hər

xanənin güclü hissəsinə düşməsi və aksentləşdirilməsi, eləcə də oxumalarla dövrəyə alınması, musiqini şən, gümrah, oynaq əhval-ruhiyyəli edir.

Yuxarıda deyildiyi kimi, mövzu – refren sadə üçhissəli (bölümlü) formaya malikdir. Birinci bölümdə (altıxanəli, qeyri-mütənasib (4 xanə+2 xanə) dövr), o, violinoda, violonçelin sıçrayışlı, çevik passajları (onaltılıqlarla) və fortepianonun ostinatolu müşayiəti ilə keçirilir. Qeyd edək ki, violinoda səslənən mövzunun cəld, irəliyə can atan, sürətli inkişafı, violonçelin virtuozlu müşayiəti, simlilərin ifaçılıq texnikasını nümayiş etdirməsi üçün əlverişli imkanlar yaradır.

Refrenin orta bölümü şən, bayram təsirli mövzunun elementləri əsasındadır və işlənmə xarakterlidir (mövzunu violonçel aparır). Onun inkişafında motiv işlənmələri, variantlı elementlərin təkrarı, sekvensiyalı hərəkət və s. böyük rol oynayır (1).

Nümunə 24.




Vurğulayaq ki, mövzu işləməyə məruz qalaraq, tədricən, öz daxili, "yerli" kulminasiyasına çatdırılır (2).

Nümunə 25.



Refrenin reprizi simlilər unisonu ilə, fortepianonun ostinatosu fonunda keçirilir (3). Köməkçi mövzunun səslənməsi ("Amorozo meno mosso", h moll) lirik obrazları bərqərar edərək, finalın bayram və şənlik simasına parlaq təzadlıq gətirir (4).

Nümunə 26.




Köməkçi mövzu öz oxunaqlığı və zərif, nəcib, işvə-qəmzəli xarakteri ilə səciyyələnir. Onun melodiyası trionun əvvəlki hissələrindəki mahnı-romans xüsusiyyətli mövzulara yaxındır. Mövzunun birxanəli ibarələrinin əsasən plaqal xasiyyətli VI, IV dayaq tonlarına istinadı və onların ətrafında əmələ gələn "gəzişmələr" onu yumşaq, nəcib, lətif edərək, eyni zamanda Azərbaycan xalq melodiyalarına da yaxınlaşdırır. Burada müşayiətdə deyilən lirik obraz məna "yükünü" daşıyır. Belə ki, fortepianoda onaltılıqların "yırğalanan" akkordları əsnasındakı basda əmələ gələn qısa səsaltılar, fakturanı axıcı və oxunaqlı edir.

Köməkçi mövzu sadə ikihissəli (iki bölümlü) formada yazılmışdır və bu formaya uyğun olaraq, iki kvadratlı dövrdən ibarətdir. Mövzu cümlələrinin (birinci bölümdə) violino və violonçel arasında paylaşdırılması əslində dialoq forması alır. Sonra isə, (ikinci bölümdə) mövzu artıq violonçeldə səslənərək, yeni tematik materialla bərabər (violinoda) polifonik toxumada verilir (5).

Nümunə 27.



Ümumiyyətlə, köməkçi mövzunun lirikliyinin yaradılmasında səsaltı və imitasiyalı polifoniyanın rolu böyükdür. Köməkçi mövzudan sonra kiçik, lakin virtuozlu fortepiano kadensiyası (“Cadenza ad libitum”) həyəcanlı fikir obrazı ifadə edir. Onun yüngül fiqurasiyaları sanki basların ağır addımlı passajlarının müqaviməti ilə qarşılaşır (7-dən 5 xanə öncə).

Əsas mövzu – refrenin qayıdışı şənlik ab-havasını bərpa edir (7).

Nümunə 28.




Fortepianonun əvvəlki ostinatolu fonunda keçirilən əsas mövzu (violonçeldə) yeni, ilk dəfə səslənən lirik melodiya ilə (violinoda) təzadlı polifoniya yaradır. Lakin qeyd olunmalıdır ki, bu melodiya köməkçi mövzuya intonasiya baxımından yaxındır (o, violinoda oktavalarla ifadə olunur).

Növbəti təkrar keçirilmədə əsas mövzu fortepianonun aydin və şəffaf yuxarı registrində (II-III oktavalarda) violino ilə violonçelin iki-üçsəsli akkordları ilə müşayiət olunur (simlilərdə pizzicato və arco növbələşmələri gedir). Ümumiyyətlə, mövzunun fortepianodakı çoxsəsliliyi, simlilərin ştrix zənginliyi və çoxsəsli akkordları fakturanı qatı, dolğun, virtuozlu edərək, möhtəşəm şənlik obrazını yaradır (9).

Nümunə 29.




Tədricən musiqinin belə obraz-melodik inkişafı zirvə həddinə yönəlir, lakin kulminasiyaya çatdırılaraq sanki qırılır (10). Burada bəstəkar trionun üçüncü hissəsində olduğu kimi, kulminasiya mərhələsində də melodik xəttin qırılması dramaturji effektindən istifadə edir. Nəticədə fortepianonun dalğalanan fiqurasiyaları fonunda, gözlənilməz yeni zərif – lirik mövzu (Andante cantabile) səslənir (rondo-sonata formasının mərkəzi epizodu, c moll, 11). Bu mövzu da köməkçinin intonasiya elementlərinə əsaslanaraq, onun nəcib, lirik obraz-emosional xəttinin davamı kimi səslənir (sadə üçhissəli forma).

Nümunə 30.




Melodiyanın lirik obrazı (c moll), onun qısa oxumalardan toxunulması, ibarələrinin çox vaxt üçsəsli oxuma çərçivəsində cəmləşməsi və onların variantlı təkrarı, uzaq tonallığa rəngarəng yönəlmə (e moll), xromatik xallar və s. kimi xüsusiyyətlər ilə yaranır. Xromatik intonasiyalar (artırılmış sekunda) musiqini Azərbaycan məqamlarının çalarları ilə zəngin edir.

Mövzu simlilərə tapşırılır. Onların arasındakı ifadəli dialoq, tədricən duetə

çevrilir (fortepianonun fiqurasiyaları fonunda). Əmələ gələn səsaltılar fakturanı axıcı edir və obrazın lirikliyini gücləndirir. Simlilərin həyəcanlı, gərgin-aksentli unisonunun müdaxiləsindən sonra (orta bölüm, 13) musiqi yenidən öz lirik axarına qayıdır (14).

Nümunə 31.




Finalın reprizi ("Allegro", 15) qısaldılmış şəkildə keçir və burada yalnız şən, şux həyatsevər əsas mövzu səslənir (öncə fortepiano, sonra violinoda). Demək olar ki, finalda repriz ilə kodanın funksiyaları birləşdirilir. Koda geniş və sintetikdir. Çünki, burada trionun bütün hissələrinin mövzuları keçir. Lakin onlar əvvəlki görkəmdə deyil, lad-tonallıq və digər dəyişikliklərlə, gah ritmik baxımdan böyüdülmüş, gah ixtisarlaşdırılmış şəkildə polifonik toxumalarda verilir. Məsələn, burada tədricən, I hissənin hər iki lirik mövzularının, II hissənin zarafatcıl, III – elegik, finalın əsas və köməkçi mövzularının intonasiya elementləri mövcuddur. Onların təzadlı polifonik toxumaları əsasən simlilərdə, fortepianonun dolğun, harmonik akkordlu fonunda səslənir.

Nümunə 32.



Trionun mövzu elementlərinin polifonik şəkildə inkişaf etdirilməsi, fakturanın genişlənməsi, səslənmə dinamikasının güclənməsi əsərin parlaq – virtuozlu, təntənəli və möhtəşəm sonluğuna gətirib çıxarır.

Beləliklə, trionun finalı (rondo-sonata) hissələrarası təzadlığa malikdir. Onun sxemi:

A (əsas m.) + B (köməkçi m.) + A (refren) + C (mərkəzi epiz.) + A (repriz-koda)

O.Zülfüqarovun fortepiano triosu obraz-emosional və üslub xüsusiyyətlərinə görə bu sahədə yazılmış ən maraqlı əsərlərdən biridir. Trionun obraz palitrası zəngindir. Bura müxtəlif səpkili lirik, zarafatlı (II hissə), elegik (III hissə), bayram ruhlu (final) və s. obrazlar daxildir.

Əsər ifaçılıq baxımından da özünəməxsus cəhətlərə malikdir. Alətlərin texniki imkanları bəstəkar tərəfindən orijinal və məqsədyönlü istifadə olunur. Alətləşdirmə burada zahiri, müstəqil xarakter daşımır, əksinə, obrazın açılmasına kömək edərək onun ayrılmaz hissəsinə çevrilir.

İfaçılar üçün yaranan bəzi çətinliklər, simlilərdə "saltanto" ştrixi ilə istifadə olunan triol və duolların cəld tempdə növbələşməsi, "pizzicato və arko" növbələşmələri, yuxarı registrlərin istifadəsi, iki, üçsəsli komplekslər, alətlərdə passaj texnikası, iti tempdə "staccato", lirik mövzularda "legato" və s. ilə bağlıdır. Əsər öz melodik zənginliyi ilə fərqlənir. Burada mütəhərrikli, rəqsvari, oxunaqlı, mahnıvari melodiyalar mövcuddur. Lirik melodiyalar əsərdə xüsusi yer tutur. Onlar mahnı-romans janr xüsusiyyətlidir. Təbii ki, belə melodiyaların ifasında liqalanmaya – passajların ardıcıl səslənməsinə diqqət yetirmək lazımdır. Skersodakı məzəli, zarafatlı obrazları əks etdirən epizodlarda "staccato" passajları yüngül və bir qədər oynaq ifa edilməli, skersosayağı səslənmə əldə etmək üçün isə aksentli notlar xüsusi səylə qeyd olunmalıdır.

Əsərdə polifoniyanın rolu da önəmlidir. Lirik obrazların əks etdirilməsi üçün bəstəkar səsaltı polifoniyaya, mütəhərrikli, çevik obrazların yaradılmasında isə ostinato üsulu, imitasiyalı və təzadlı polifonik fakturaya müraciət edir. Təbii ki, polifonik fakturada hər bir melodik xəttin, hər bir səsaltının ifadəliliyi qorunub saxlanılmalıdır.

Trioda O.Zülfüqarovun yaradıcılıq dəst-xəttinin ən vacib cəhətlərindən biri olan musiqi dilinin sadəliyi və səmimiliyi öz əksini tapmışdır. Bəstəkarın triosu Azərbaycan kamera-instrumental irsində özünəməxsus yer tutmuş və dinləyicilərin rəğbətini qazana bilmişdir. Əsər keçmiş SSRİ-nin müxtəlif şəhərlərində, habelə Çində, Bolqarıstanda müvəffəqiyyətlə ifa olunmuşdur. Vaxtı ilə məşhur, dünya şöhrətli musiqiçi E.Qraçın rəhbərlik etdiyi, SSRİ-nin aparıcı trio kollektivlərindən biri O.Zülfüqarovun əsərini səsləndirərək öz repertuarlarına daxil etmişdir.

## Ədəbiyyat siyahısı:

1. Xəlilov, V.C. Seçilmiş əsərlər / V.C.Xəlilov. – Bakı: Nərgiz nəşriyyatı, – c.7. – 2013.
2. Xəlilov, V.C. Bəstəkar Oqtay Zülfüqarov. Monoqrafiya. / V.C.Xəlilov. – Bakı: Şur, – 1997.
3. Раабен, Л. Советская камерно-инструментальная музыка. / Л.Раабен. – Москва: Музгиз, – 1963. – 283 с.
4. Кулиев, Т.А. Азербайджанская камерно-инструментальная и концертная музыка для смычковых инструментов / Т.А.Кулиев. – Баку: Азернешр, – 1971. – 60 с.
5. Гайдамович, Т. Инструментальные ансамбли / Т.Гайдамович. – Москва: Музгиз, – 1960.

**Ровшан Абдуррахман Амрахов**

## ОСОБЕННОСТИ ФОРТЕПИАННОГО ТРИО ОКТАЯ ЗУЛЬФУГАРОВА

**Резюме:** В представленной статье рассмотрены особенности фортепианного трио Октая Зульфугарова – яркого представителя азербайджанской композиторской школы. Также в статье освещается творчество композитора и выделяется особенности его камерно-инструментального творчества. В дальнейшем был проанализирован фортепианное трио и исследованы особенности музыкального языка. Было отмечено, что фортепианное трио О.Зульфугарова сочетает в себе простоту и искренность, яркую выразительность, свойственную творчеству композитора.

**Ключевые слова:** О.Зульфугаров, композитор, творчество, трио, анализ, форма, жанр, фортепиано

**Rovshan Abdurrahman Amrahov**

## FEATURES OF OKTAY ZULFUGAROV'S PIANO TRIO

**Summary:** The presented article examines the features of the piano trio by Oktay Zulfugarov, a prominent representative of the Azerbaijani school of composition. The article also highlights the composer's work and highlights the features of his chamber-instrumental work. Subsequently, the piano trio was analyzed and form-structure, characteristics of musical language were explored. It was noted that O.Zulfugarov's piano trio combines simplicity and sincerity, bright expressiveness characteristic of the composer's work.

**Keywords:** O.Zulfugarov, composer, creativity, trio, analysis, form, genre, piano

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03.03.2024**